*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 220-226*

https://doi.org/10.62837/2025.8.220

**İLAHƏ SƏFƏRZADƏ**
Doktorant
Bakı Dövlət Universiteti

# AZƏRBAYCAN TARİXİ NƏSRİNDƏ REPRESİYA QURBANI QADINLARIN BƏDİİ İNİKASI

## XÜLASƏ

Bu məqalədə Azərbaycan ədəbiyyatında repressiya mövzusunun qadın obrazları kontekstində bədii təqdimatı araşdırılır. Repressiya dövrü qadın obrazlarının təsvirində kollektiv yaddaşın, milli travmanın və mənəvi müqavimətin bədii təcəssümünü üstünlük təşkil edir. Araşdırma göstərir ki, bu obrazlar mənəvi direniş, mərhəmət və insani dəyərlərin qorunması funksiyalarını ifadə edirlər. Düşərgə, sürgün, işgəncə və ayrılıq motivləri qadın taleyinin realist, həm də simvolik səviyyədə təqdim olunmasına imkan yaradır. Müəlliflər qadınların həyat hekayələri vasitəsilə cəmiyyətin mənəvi-psixoloji vəziyyətini, ailə münasibətlərinə təsiri və sosial ədalətsizlik problemini ön plana çıxarırlar.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, repressiya qurbanı qadınların bədii təqdimatı tarixi və sosial kontekstlə yanaşı simvolik baxımdan müqayisəli şəkildə araşdırılır. Fərdi talelərin bədii interpretasiyası vasitəsilə müəlliflər kollektiv yaddaşı, ana arxetipini və qadınların mənəvi müqavimətini ədəbiyyat müstəvisində yenidən qururlar.

Beləliklə, Azərbaycan nəsrində represiya qurbanı qadın obrazları bədii və simvolik qatlarda işlənərək ədəbiyyatda yeni təhlil perspektivləri açır və elmi araşdırmalar üçün zəngin material təqdim edir.

**Açar sözlər:** represiya, çağdaş nəsr, qadın obrazları, simvolizm, müqayisəli təhlil

**ILAHA SAFARZADA**
Ph.D student
Baku State University

# ARTISTIC REPRESENTATION OF WOMEN VICTIMS OF REPRESSION IN AZERBAIJANI HISTORICAL PROSE

## ABSTRACT

This article examines the literary representation of the theme of repression in Azerbaijani literature in the context of female characters. In the depiction of women during the period of repression, the artistic reflection of collective memory, national trauma, and moral resistance is emphasized. The study shows that these characters embody functions of moral resilience, compassion, and the preservation of human

values. The motifs of the camp, exile, torture, and separation enable the portrayal of women's destinies both on realistic and symbolic levels. Through the life stories of female characters, the authors bring to the forefront the moral-psychological condition of society, the impact on family relations, and the problem of social injustice.

The scholarly novelty of the research lies in the fact that the literary representation of repressed women is examined comparatively not only in historical and social contexts but also symbolically. Through the artistic interpretation of individual fates, the authors reconstruct collective memory, the maternal archetype, and women's moral resistance within the literary framework.

Thus, the portrayal of repressed female characters in Azerbaijani prose, developed through both artistic and symbolic layers, opens new analytical perspectives in literature and provides rich material for scholarly research.

**Keywords:** repression, contemporary prose, female characters, symbolism, comparative analysis

**ИЛАХА САФАРЗАДА**
Докторант
Бакинский государственный университет

## ОТРАЖЕНИЕ ЖЕНСКИХ ОБРАЗОВ ЖЕРТВ РЕПРЕССИЙ В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИЧЕСКОЙ ПРОЗЕ

### РЕЗЮМЕ

В данной статье рассматривается художественное воплощение темы репрессий в азербайджанской литературе в контексте женских образов. В изображении женских персонажей периода репрессий доминируют мотивы коллективной памяти, национальной травмы и духовного сопротивления. Исследование показывает, что эти образы выражают функции нравственного стоицизма, милосердия и сохранения человеческих ценностей. Мотивы лагеря, ссылки, пыток и разлуки способствуют реалистическому и одновременно символическому раскрытию женской судьбы. Через жизненные истории женщин авторы акцентируют внимание на морально-психологическом состоянии общества, воздействии репрессий на семейные отношения и проблеме социальной несправедливости.

Научная новизна исследования заключается в том, что художественное представление женских образов — жертв репрессий — анализируется в сопоставительном аспекте не только с историко-социальной, но и с символической точки зрения. Посредством художественной интерпретации индивидуальных судеб авторы воссоздают в литературном пространстве коллективную память, архетип Матери и духовное сопротивление женщин.

Таким образом, женские образы — жертвы репрессий — в азербайджанской прозе раскрываются на художественном и символическом уровнях, открывая новые перспективы анализа и предоставляя богатый материал для дальнейших научных исследований.
**Ключевые слова:** репрессия, современная проза, женские образы, символизм, сопоставительный анализ

## Giriş

Azərbaycan ədəbiyyatında repressiya mövzusu XX əsrin ortalarından başlayaraq fərdi və kollektiv talelərin bədii təsvirində mühüm yer tutur. "Azərbaycan ziyalılarının müəyyən bir qrupu öz vətənlərində digər dövlətin xüsusi orqanları tərəfindən zorakılıqla həbs edilib, mühakimə olunmuş və cəza çəkmək üçün uzaq Solovkiyə - "buzlu cəhənnəm"ə yola salınmışdır" [7] Ümumiyyətlə, bu dövr tarixin ən ağrılı səhifələrindən birini əks etdirir. "1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət və faciə şəklində bütün respublikanı bürüyən repressiya qurbanlarının sayı dəqiq məlum deyil. Lakin o aydındır ki, bəzi istisnalar nəzərə alınmasa, güllələnənlərin, sürgün edilənlərin, həbsxana divarları arasında min bir işgəncə ilə qətlə yetirilənlərin böyük əksəriyyəti Sovet rejimi, kommunist ideologiyası və mövcud quruluşa qarşı real və ciddi təhlükə yarada biləcək güc və zəka sahibləri idi" [10] Həmin dövrdə bir çox yazıçı, şair, ədəbiyyatşünas, ictimai xadimlər represiyaya məruz qalsa da müstəmləkə dövründə bu mövzunu işıqlandırmaq mümkün olmamışdır.

Müstəqillik dövrü nəsrimizdə dönəmin təsviri öz əksini tapır. Xüsusilə qadın obrazlarının represiya şəraitində təqdimatı cəmiyyətin mənəvi-psixoloji vəziyyətini, fərdin daxili dünyasını əks etdirən zəngin material yaradır. Qadınların repressiya qurbanı kimi təsvir olunması gender, sosial və psixoloji aspektləri birləşdirən kompleks analiz tələb edən bir məsələdir. Bu obrazlar vasitəsilə müəlliflər qadının fədakarlığını, mənəvi müqavimətini və daxili sarsıntılarını təqdim edir, ictimai ədalətsizlik və insanlıq dəyərlərinin qorunması məsələsini ön plana çıxarırlar. Obrazların simvolik funksiyası xüsusi əhəmiyyət kəsb edir. "Ədəbiyyatımızda ayıq bədii düşüncə ruhunun özünü göstərməyə başlaması ədəbi prosesdə yeni keyfiyyət dəyişikliyi kimi diqqəti çəkir. İndi ədəbiyyat olub keçənləri təsvir və təhkiyə ilə kifayətlənmir, başımıza gələn fəlakətin səbəbləri üzərində düşünür" [6, s 41]

Bu mövzunu araşdırmaq üçün biz çağdaş Azərbaycan yazıçıları Mənzər Niyarlı və Ülviyyə Tahirin yaradıcılığından olan əsərlərə müraciət etdik. Hər iki müəllifin əsərlərində qadın obrazları repressiya kontekstində həm realist təsvirlər, həm də poetik-simvolik qatlarla işlənmişdir ki, bu da onların elmi təhlil üçün material təqdim etməsini təmin edir.

**Əsas hissə**

Mənzər Niyarlının “Qürbətə aparan Qatar” povestində represiyaya məruz qalmış qadın obrazı kimi Əfruz diqqət mərkəzindədir. Əfruz obrazı Azərbaycan ədəbiyyatında repressiya dövründə qadın taleyinin dramatik təqdimatının tipik nümunəsidir. Onun həyatı əvvəlcə ailə xoşbəxtliyi ilə başlansa da siyasi repressiya onun bütün ailə həyatını alt-üst edir. Ərinin günahsız yerə həbs olunması və sonrakı dövrdə onun özünün Akmol düşərgəsinə aparılması qadın obrazının fiziki və mənəvi iztirabını daha da çoxaldır.

Əfruzun əsirlikdə yaşadığı on il boyunca övladlarından ayrı qalması və bu müddətdə qızlarına başqalarının baxması Azərbaycan cəmiyyətinin repressiya dövründəki struktur və ailə münasibətlərini əks etddirmək baxımından əhəmiyyətlidir. Bu aspekt qadın obrazının reallıqla uyğunlaşma və mənəvi müqavimət funksiyasını ön plana çıxarır.

Povestdə Əfruzun obrazı eyni zamanda ana arxetipinin simvolik funksiyası ilə zənginləşdirilmişdir. O, hər zaman övladlarının taleyinə, gələcəyinə bağlı olaraq yaşamağa davam edir. Əfruzun taleyi repressiya qurbanı qadınların mənəvi müqavimətini və insanlıq dəyərlərinin qorunmasını nümayiş etdirir. Beləliklə, povestdəki qadın obrazı repressiya dövrünün kollektiv yaddaşını və ana arxetipinin ədəbiyyatda bədii təcəssümünü təqdim edir.

Əsərdə digər represiya qurbanları tarixi qadın şəxsiyyətlərin də obrazları xatırlanır: Əhməd Cavadın həyat yoldaşı Şükriyyə və Hənəfi Zeynallının həyat yoldaşı. “Tarixi romanlarda eyni əsrdə yaşamış, lakin müəyyən səbəblər üzündən bir-birilə görüşməyən şəxsiyyətlər “görüşə” bilər. Lakin bu ehtimalın özü də tarixi reallığın mümkünlüyünə dəlalət etməlidir”. [1, s 132] Ümumilikdə əsər Azərbaycan ədəbiyyatında represiyaya məruz qalmış qadınların bədii təqdimatına dair elmi araşdırmalar üçün əhəmiyyətli material yaradır.

Ülviyyə Tahirin “Şükriyyə taleyim” romanında Şükriyyə obrazı da repressiyanın qadın həyatına təsirini təsvir edir. Şükriyyə övladlarından və sevdiklərindən ayrılaraq düşərgədə ağır işkəncələrə məruz qalır, ərinin təqiblərə məruz qalması onun mənəvi vəziyyətini daha da mürəkkəbləşdirir. “Şükriyyə xanım həyat yoldaşı Əhməd Cavada görə sürgün edilmişdi. Mən Şükriyyə xanımla çox maraqlanmışam. Deməli, Qazaxıstanda “Aljir” adlı bir həbs düşərgəsi var idi. Xalq düşmənlərinin həyat yoldaşları orda saxlanılırdı. Mən o düşərgədə olanda azərbaycanlı qadınların siyahısını tapmışdım. O siyahıda Şükriyyə xanımın da adı var idi. Orda mənə Şükriyyə xanım haqqında xeyli danışıblar. Mən bunu deməliyəm. Orda qadınların başına çox iş gəlirdi. Xüsusilə də gözəl qadınların. Gözəl qadınları zorlayırdılar. Şükriyyə də çox gözəl qadın olub. Özü də acar knyazı Süleyman bəyin qızı idi. Gündüz o çətin, ağır işlərdə işləyirdi. İşi bitəndən sonra dincəlmək əvəzinə gəlib tualetdə sidiyin içinə uzanırmış. Sonra hamının içinə gəlirmiş, hamı da ondan iyrənib yaxın durmurmuş. O, namusunu belə qoruyub. Bunları eləməsəydi, Allah

bilir, başına nələr gələrdi.” [4] Əsərdə Şükriyyənin həm gənclik dövrü, həm də əsirlik illəri təsvir olunur ki, bu da onun xarakterinin psixoloji dərinliyini ön plana çıxarır. “Bəli, o özünü tamamilə fərqli qadın olduğuna inandırmışdı. Amma bu həqiqəti dəyişmirdi. Meşşan qadınların fəxr etdikləri xüsusiyyətlərə malik olduğundan, bəlkə də, heç xəbəri yox idi. Onlar həyat yoldaşlarının vəzifələri, bitirdikləri gecə kursları, oxuduqları kitablar və geyindikləri paltarlarla öyünürdülər. Gizlicə tutduqları dayələrin vaxtilə hansısa bəyzadənin evində işləməsi ilə lovğalanırdılar. Və ən əhəmiyyətlisi, hamının gözünə soxduqları bir üstünlükləri var idi: onlar kommunist idilər. Məni qadın klubundan qovanda da, küçədə salam verməyəndə də Heyran xanım özünü haqlı sayırdı. Asta addımlarla oradan uzaqlaşdım. O hadisəni sonralar xatırlayanda həmin vaxt sərgilədiyim səbatımla qürur duymuşdum. Heyranla tamamilə başqa bir səhnədə qarşılaşacağımı heç ağlıma da gətirməzdim” [9, s 214-215]

Şükriyyənin düşərgədəki həyatını qoruması və əxlaqi ləyaqətini saxlaması Azərbaycan qadınlarının kollektiv faciəsini və mənəvi müqavimətini simvolizə edir. Obrazların bu cür təsviri müstəqillik dövrünə təsadüf etməsi də təsadüfi deyil. “Tarixilik bütün dövrlərdə müasirliklə qoşa yaşamışdır. Mahiyyətində müasirlik olmayan, müasirlikdən kənar yaranmış əsl tarixi roman və ya hər hansı bir janrda bədii əsər yoxdur.” [5, s 46]

Hər iki əsərdə qadın obrazları repressiya dövründə milli və ictimai travmanı da əks etdirir. Əsərlərdə Əfruz və Şükriyyə obrazlarının övladlarına və insanlığa bağlılıqları, mərhəmətləri və mənəvi dirənişləri ilə repressiya şəraitində qadının daxili müqavimətini bədii şəkildə etdirir. Roman dili baxımından da həmin dövrü əks etdirmək iqtidarındadır. "Oxucu yalnız əsərin təsviri vasitəsilə belə özünü 20-ci əsrdə “tapmış” kimi hiss edə bilir.” [2, s. 43]

Hər iki əsər qadın obrazlarını realist və simvolik səviyyədə təqdim etməklə Azərbaycan nəsrində represiyaya məruz qalmış qadınların bədii təmsilinin araşdırılması üçün zəngin material təmin edir. Simvolik səviyyədə repressiya və əsirlik motivləri qadınların taleyinə metaforik və fəlsəfi dərinlik əlavə edir. Qadın obrazları ana arxetipinin, mənəvi müqavimətin və insanlıq dəyərlərinin ədəbiyyatda təcəssümünü əks etdirir.

Ülviyyə Tahirin “Aljir” əsərində Firuzə və Gülnarə obrazları represiyanın qadın həyatına təsirini araşdırmaq baxımından əhəmiyyət kəsb edir. Firuzə həyat yoldaşının həbsindən sonra təkbaşına qalmış, övladından ayrılmış və düşərgədə ağır işkəncələrə məruz qalmış qadındır. Gülnarə isə köməksevər, mübariz qadın obrazı kimi təqdim olunur. O, çətin şəraitdə digər insanlara yardım edir, qadınları qorumağa çalışır, lakin özünə qarşı haqsızlıqlar və təzyiqlərlə üzləşir. “Firuzə qalxıb Pərvanəni geyindirdi. Evdən çıxdılar. Yuxudan qalxanda qərar vermişdi: Allahı axtarmağa gedəcəkdi.Gedib şikayət edəcəkdi. Ətrafdakı insanlar bir-bir yoxa çıxdıqca onu bürüyən dəhşətdən bir başqa yolla can qurtarmağın yolunu tapa bilmirdi”. [8, s. 178]

Bu obrazlar repressiya dövründə qadınların qurban simvolu kimi təqdim olunduğunu ifadə etsə də onların mübarizliyini, əyilməzliyini qələmə almaq baxımından da əhəmiyyət kəsb edir. Əfruz, Şükriyyə, Firuzə və Gülnarə övladlarına, insanlığa və yüksək dəyərlərə bağlılıqları, mərhəmətləri və mübarizlikləri ilə repressiya şəraitində qadınların daxili müqavimətini simvolizə edirlər. "Tarixi romanlar üçün vacib şərtlərdən biri dövrün, zamanın ruhunu qoruyub saxlamaq, sözün geniş mənasında tarixi prinsipə riayət etməkdir ki, bu da yazardan ədəbi materiala ciddi yanaşma tərzini tələb edir." [3, s.35]

Simvolik təhlil üçün hər üç əsərdə qadınların taleyi repressiya və əsirlik motivləri ilə zənginləşdirilmiş, düşərgə, əsirlik, ayrılıq və işkəncə motivləri qadınların taleyinə metaforik və fəlsəfi dərinlik qazandırmışdır.

Mənzər Niyarlı və Ülviyyə Tahirin əsərlərində yaradılmış qadın obrazları Azərbaycan nəsrində represiyaya məruz qalmış qadınların taleyini, onların mənəvi müqavimətini və simvolik funksiyasını tədqiq etmək üçün zəngin elmi material təqdim edir, müasir nəsrimizdə represiya mövzusunda yeni yanaşmalar üçün əsas yaradır.

**Nəticə**

Tədqiqat göstərir ki, Azərbaycan ədəbiyyatında represiyaya məruz qalmış qadın obrazları milli və kollektiv travmanın bədii təcəssümünüdür. Mənzər Niyarlının "Qürbətə aparan qatar" povestində Əfruz, Ülviyyə Tahirin "Şükriyyə taleyim" və "Aljir" əsərlərində Şükriyyə, Firuzə və Gülnarə obrazları repressiya şəraitində qadınların yaşadığı psixoloji, mənəvi və fiziki sarsıntıları əks etdirir. Bu obrazlar vasitəsilə müəlliflər qadınların fədakarlığını və insani dəyərlərə bağlılığını ön plana çıxarır, eyni zamanda repressiya dövrünün ailə və sosial münasibətlərə təsirini bədii şəkildə təqdim edirlər. Onların övladlarına və insanlığa bağlılığı, mübariz və mərd ruhları represiya şəraitində qadının daxili müqavimətini simvolizə edir. Düşərgə, əsirlik, ayrılıq və işkəncə motivləri obrazların simvolik funksiyasını gücləndirir, fərdi faciəni və kollektiv yaddaşı əks etdirir.

Qadınlararası həmrəyliyin ön plana çıxarılması və ortaq acılarla formalaşan kollektiv yaddaşın narrativə daxil edilməsi, romanı klassik tarixi qurğudan kənara daşıyır. Xüsusilə ALJİR düşərgəsindəki qadın fiqurlarının portretləri həm tarixi şahidlik, həm də ədəbi ədalət forması kimi oxuna bilər. Bu qadınların yaşadıqları gələcəyə ünvanlanan bir xəbərdarlığın mahiyyətini daşıyır: totalitar sistemlərdə qadının bədəni və ruhu həmişə ideoloji hökmranlığın ən müdafiəsiz hədəfi olur.

Elmi yenilik olaraq qeyd etmək olar ki, bu tədqiqat Azərbaycan ədəbiyyatında represiyaya məruz qalmış qadın obrazlarını simvolik və filoloji baxımdan araşdırır. Əsərlərdəki qadın obrazlarının müqayisəli təhlili göstərir ki, fərdi taleyin bədii təqdimatı və simvolik interpretasiyası vasitəsilə müəlliflər qadınların mənəvi müqavimətini, analıq duyğularını və insanlıq dəyərlərini təsvir edərək ədəbiyyatda yeni təhlil perspektivi yaradır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 220-226*

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Axundlu, Y. Tarixi roman yeni mərhələdə (1980-1990-cı illər) / Bakı: Maarif -1998, 176 s
2. Əhmədova, İ. (2022). 30024. Ülviyyə Tahirin "Şükriyyə Taleyim" əsəri haqqında. "Ustad" Ədəbiyyat və Sənət Dərgisi, Cilt 8, Say 39. s. 42-44.
3. Elaydi, A. S. (2017). Müstəqillik Dövrü Azərbaycan Romanı: mövzu, problematika və bədii məsələlər (1991–2005). Bakı: Nurlar.
4. Əliyeva, L. APA-ya müsahibəsi \ İnternet resursu. https://apa.az/sosial/alim-repressiya-vaxti-azerbaycan-qadinlarinin-coxuna-en-yuxari-hebs-cezasi-verilirdi-musahibe-659241
5. Hüseynov, T. Tarixi roman ustası / Bakı: Yazıçı -1986, 165 s
6. Mehrəliyev, E. Zaman və ədəbiyyat / Bakı: MBM -2009, 296 s
7. Rüstəmli Asif, Represiya və ədəbiyyat \ https://science .gov.az/ az /news/ open/31495
8. Tahir Ülviyyə, Aljir \ Bakı: Səbat -2024, 304 s.
9. Tahir, Ü. Şükriyyə Taleyim \ Bakı: Səbat -2024, 304 s
10. Tahirli Abid, Represiya qurbanı olmuş qələm sahiblərimiz \525-ci qəzet -2015.- 16 oktyabr - s. 6

**Rəyçi: fil.ü.fil.dok. Zəkiyeva Aygün Hidayət qızı**